AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

# AZƏRBAYCAN TARİXÇİLƏRİ

## *BİBLİOQRAFİK GÖSTƏRİCİ*

(Tarix İnstitutunda çalışan və
burada fəaliyyət göstərmiş tarixçilər)

I hissə
Kitablar

10602
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«ŞƏRQ-QƏRB»
Bakı - 2010

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur*

Layihənin rəhbəri, baş məsləhətçi və elmi redaktor: **Y.M.Mahmudov**
*əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*

Tərtibçilər: **Əmin Tahir oğlu Əfəndiyev**
**Zakirə İmamverdi qızı Əliyeva**

Redaksiya heyəti: ***Y.M.Mahmudov (Baş redaktor), C.Ə.Bəhramov, T.H.Nəcəfli, G.N.Məmmədova, O.Ə.Əfəndiyev, H.N.Həsənov, N.Ə.Maksvell, A.Ə.Məmmədov, Ə.Q.Qasımov, İ.S.Bağırova, Q.Ə.Hacıyev, K.K.Şükürov, M.H.Seyidbəyli, T.T.Mustafazadə, T.A.Babayev, E.Ə.Məhərrəmov***

**Azərbaycan tarixçiləri. Biblioqrafik göstərici. I hissə. Kitablar.**
Bakı, «Şərq-Qərb» Nəşriyyat evi, 2010, 384 səh.

**ISBN 978-9952-34-549-0**

© AMEA Tarix İnstitutu, 2010
© «Şərq-Qərb» Nəşriyyat evi, 2010

# TARİXİ BİLİKLƏRİN QAYNAĞI İLK MƏNBƏLƏR, ARXİV SƏNƏDLƏRİ VƏ TƏDQİQAT ƏSƏRLƏRİDİR

***«Azərbaycan tarixçiləri» biblioqrafik göstəricisinə (Birinci hissə)***

## ÖN SÖZ

Oxuculara təqdim olunan «Azərbaycan tarixçiləri» biblioqrafik göstəricisi Milli Elmlər Akademiyasının Tarix İnstitutunda həyata keçirilən geniş islahatlar proqramı çərçivəsində nəşr olunur.

Biblioqrafik göstəricinin nəşri müasir informasiya texnologiyaları əsrində belə bir topluya olduqca böyük ehtiyac yaranması ilə bağlıdır.

Fikrimizcə, oxucularda kitab oxumağa meylin azalması və hər cür məlumat üçün kompyuter üzərinə axının güclənməsi, çox keçmədən cəmiyyətin müxtəlif təbəqələrində, ən azı, Azərbaycan tarixi barədə düzgün olmayan, hətta yanlış və təhrif olunmuş məlumatların formalaşmasına səbəb olacaqdır.

Bu bir həqiqətdir ki, gerçək tarix ilk mənbələrdə, o cümlədən nadir əlyazmalarda və arxiv sənədlərində əks olunmuşdur. Bütün bu qaynaqların isə, ən azı, yaxın zamanlarda, kompyuter saytlarına köçürülüb başa çatdırılması şübhə doğurur. Ümumiyyətlə, bu işi həyata keçirmək mümkün olacaqmı?! Bunun özü də inandırıcı görünmür. Odur ki, oxucuların, xüsusilə tədqiqatçıların ilk mənbələrdən, arxivlərdən ayrı düşməsi tarix elminin gələcəyi üçün böyük təhlükədir. Bu təhlükəni dərk etmək və onu yaxına buraxmamaq elmimizin gələcəyi üçün çox önəmli bir zərurətdir. Akademiyanın Tarix İnstitutunda həmin biblioqrafik göstəricinin yaradılması təşəbbüsü də məhz həmin zərurətlə, həmin ehtiyacla sıx bağlıdır.

Beləliklə, «Azərbaycan tarixçiləri» biblioqrafik göstəricisini yaratmaqla biz Azərbaycan tarixi ilə maraqlananlara köməklik göstərmək, onları maraqlandıran tarix əsərlərini asanlıqla əldə edə bilmələri üçün yol göstərmək istəyimizi həyata keçirməyə çalışmışıq. Düşünürəm ki, bununla tarix elmimizin gələcəyi üçün faydalı bir addım atmışıq.

Biblioqrafik göstəriciyə hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda çalışan və vaxtilə bu elmi tədqiqat müəssisəsində fəaliyyət göstərmiş tarixçilərin əsərləri daxil edilmişdir.

«Azərbaycan tarixçiləri» biblioqrafik göstəricisi iki hissədən ibarət olacaqdır. Oxuculara təqdim olunan hazırkı kitab biblioqrafik göstəricinin Birinci hissəsidir. Bu hissəyə tarixçilərimizin ancaq kitabları daxil edilmişdir. Yaxın gələcəkdə biblioqrafik göstəricinin elmi məqalələrdən ibarət olan İkinci hissəsi də oxuculara təqdim olunacaqdır.

«Azərbaycan tarixçiləri» biblioqrafik göstəricisi Tarix İnstitutunun müvafiq şöbələrindən və hazırda institutda çalışan müəlliflərdən alınmış məlumatlar əsasında tərtib olunmuşdur.

Biblioqrafik göstərici institut Elmi Şurasında dəfələrlə müzakirə olunduqdan sonra çapa məsləhət görülmüşdür.

«Azərbaycan tarixi» biblioqrafik göstəricisinin oxucular, xüsusilə tədqiqatçı alimlər tərəfindən maraqla qarşılanacağına, ondan istifadə edənlər üçün faydalı olacağına və tarix elmimizin inkişafına müəyyən təkan verəcəyinə şübhə etmirəm.

«Azərbaycan tarixi» biblioqrafik göstəricisi çapa hazırlanarkən bu mühüm işin ərsəyə gəlməsi üçün tərtibçilər Əmin Əfəndiyev və Zakirə Əliyevanın olduqca gərgin və gərəkli əmək sərf etdiklərini oxuculara yetirməyi də özümə borc bilirəm.

**Yaqub Mahmudov**
*əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü*





## TƏRTİBÇİLƏRDƏN

Hər bir xalq tarixin, o cümlədən bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi dəyərlərin sahibidir. Bu baxımdan xalqların mürəkkəb və keşməkeşli həyat yolu, milli şüurunun formalaşması, mənəvi inkişafı, yeni cəmiyyət, demokratik ideallar uğrunda mübarizəsi, dövlətçilik ənənələri tarixi inkişaf prosesində həlledici rol oynamaqla yanaşı, insan təfəkkürünün ən ali məhsulu olan tarixi yaddaşda öz əksini tapır.

Tarix ideyalar, ictimai-siyasi, iqtisadi formasiyalar, müharibələr, xalqların, dövlətlərin tarixidir. Bəşər övladının yaratdığı, yüzilliklərin süzgəcindən keçib gələn fikirlər, ideyalar, nəzəriyyələr tədricən formalaşıb kitab səhifələrinə köçərək faktlara çevrilir və tarixləşir. Tarixi xalqlar yaradır, bu tarixi tədqiq edərək ümumiləşdirən tədqiqatçı alimlər isə yoxlanılmış, dəqiqləşdirilmiş, həqiqəti əks etdirən aydın dəlillərə, inkarolunmaz mənbələrə əsaslanaraq, tarixi proseslərin məntiqi ardıcıllığını izləyərək bəşəriyyətin tarixini yazır. Lakin tarix təkcə quru rəqəmlər və faktlardan ibarət olmayıb, əsrlərdən əsrlərə boylanan təhlillərlə, şərhlərlə, mülahizələrlə, münasibətlərlə yazılır.

Tarixin inkişaf prosesi heç vaxt bir nöqtədə donub qalmadığı kimi, ictimai elmlərin ön sırasında gedən və bu proseslərdə aparıcı rol oynayan tarix elmi də dəyişməz qalmir, cəmiyyətin, ictimai quruluşun və zamanın nəbzinə müvafiq axarda inkişafa davam edir.

Məhz bu səbəbdən tarix adlı elmin özünün də tarixində cəmiyyətin təkamül proseslərinin, ictimai quruluşların, hakimiyyət və ideyalar uğrunda mübarizələrin, müharibələr və münaqişələrin, repressiyaların izi var. Bunu görmək üçün təkcə müxtəlif dövrlərdə, müxtəlif ictimai-siyasi şəraitlərdə yazılmış tarixi mənbələrə, ədəbiyyata nəzər yetirmək kifayətdir.

Tarixə çevrilən hər ötən gün alimlərimizin tədqiqatlarında öz izini qoyur və yaddaş tariximizdə əsrləri əsrlərə qovuşdurur. Tarixin bu romantikasını poetik bir dildə qələmə alan, düşüncələrində bu romantikanı tarix qarşısında vətəndaşliq borcu ilə qovuşduran görkəmli tarixçi alim Yaqub Mahmudov əsərlərinin birində yazir: "Açılan hər sabahın dan şəfəqini qarşılayarkən daha bir günümüz

arxada qalır, ümidlər, arzular isə yenidən baş qaldırır. Həyat davam edir, günlər günlərə qovuşur, açılan hər sabah dönüb bu gün olur, bu gün dünənə, dünən isə keçmişə çevrilir. Beləcə tərcümeyi-halımız yaranır... Tarix də belədir. Lakin o təklikdə mənim, sənin, onun deyil, bütünlükdə bizim hamımızın - elimizin, xalqımızın, xalqların - bütün insanlığın tərcümeyi-halıdır. Bu tərcümeyi-halın dünəni, bu günü, sabahı - zaman parçası - illər, əsrlər, qərinələrdir, zəncir kimi biri-birinə bağlı qərinələr! Biri səbəb, o biri nəticə, digəri isə gələcəyə bünövrə olan qərinələr..."[1]

Bu günün qlobal informasiya mühiti XXI əsrin tarixçilərinin qarşısına yeni vəzifələr qoyur. Xalqimizin əsrlərdən əsrlərə əmanət edilən tarixini tədqiq edən alimlərimiz tarixdə Azərbaycanımızı yaşatmaq kimi bir şərəfli vəzifəni yerinə yetirirlər. Müasir tarixçi alimlər bəşəriyyətin formalaşdırdığı zəngin tarixi irsə müraciət edərkən ilk olaraq biblioqrafik informasiya mənbələrinə üz tuturlar. Amma unutmamalıyıq ki, bu mənbələrin özünü də elə tarixçilərin özü yaradır. Biblioqrafiya isə elmi əsaslara söykənərək, bu tarixi yazanların elmi təfəkkür məhsullarını nizamlayır, öyrənir, tövsiyə edir və öz universal xarakterini caxlamaqla həsr olunduğu elm tarixinin bir hissəsinə çevrilir. Bu mənada tarix elmimizin biblioqrafik informasiya təminatı işində dəqiqlik, qarşlıqlı məsuliyyət Azərbaycan tarix elminin və biblioqrafiyaşünaslığının, sonda isə Azərbaycanımızın gələcəyini təmin etmiş olar.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşlarının elmi əsərlərinin biblioqrafik göstəricisi də Azərbaycan tarix elminin biblioqrafik tarixini əks etdirən bir töhfədir.

Azərbaycan xalqının bir sıra görkəmli alimləri hələ VII-IX əsrlərdən başlayaraq bütün Şərqdə geniş şöhrət qazanmışlar. Orta əsrlərdə yaşamış Xətib Təbrizi, Bəhmənyar, Nəsirədddin Tusi, Seyid Yəhya Bakuvi, Əcəmi və onlarla başqa alimlər təkcə Şərqdə deyid, bütün dünyada tanınmışlar. XIX əsrdə yaşayıb yaratmış Zeynalabdin Şirvani, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, Mirzə Kazımbəy, M.Topçubaşov və başqaları dünya elminin inkişafına öz töhfələrini vermişlər. XX əsrdə yetişmiş Y.Məmmədəliyev,

[1] *Mahmudov Y. Odlar yurduna səyahət (B., 1980, s.3-4.).*





Ü.Hacıbəyov, M.Topçubaşov, M.Qaşqay, Z.Xəlilov, İ.Mustafayev, H.Əliyev, Z.Bünyadov və başqaları Azərbaycan elmini dünyada tanıdan nadir şəxsiyyətlərdir.

Xalqımız özünün çoxəsrlik inkişafı tarixində bəşər mədəniyyəti xəzinəsinə minlərlə görkəmli şəxslər, elm və mədəniyyət xadimləri, alim, yazıçı, bəstəkar, rəssam və b. şəxslər bəxş etmişdir. Bu gün də Azərbaycanı dünyada tanıdan çoxlu elm adamlarimiz yetişmişdir. Onların arasında tarix sahəsində çalışan alimlər də az deyil.

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycanın ən mühüm, böyük tarixi inkişaf yolu keçmiş elmi-tədqiqat ocaqlarından bırıdır. İnstitut öz tarixi fəaliyyətinə hələ XX əsrin əvvəllərində, 1923-cü ildə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti bazasında başlamışdır. Azərbaycanın ədəbiyyatı, mədəniyyəti ilə yanaşı, tarixi, arxeologiyası və etnoqrafiyasının tədqiqi sahəsində də xidmətləri ilə tanınmış bu Cəmiyyət tarixçi alimlərimizin yetişməsində də mühüm rol oynamışdır. Məhz həmin tarixçi alimlərin Azərbaycanın tarixi, arxeologiyası və etnoqrafiyası ilə bağlı nəşr etdirdikləri və təqdim etdiyimiz biblioqrafik göstərıciyə daxil edilmiş materiallar öz xronoloji əhatəsini 1923-cü ildən götürür. İllər keçdikcə elmi yaradıcılıq potensialını daha da qüvvətləndirən Cəmiyyətin bazası əsasında 1929-cu ildə tədqiqatçı kadrların geniş kontingentini əhatə edən Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu təşkil edilir ki, onun nəzdində yaradılmış Tarix-etnoqrafiya şöbəsi elmi tədqiqatların yeni istiqamətlərini inkişaf etdirir. 1932-ci ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradılır və sonra həmin şöbə müstəqil sektor kimi SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin tərkibinə daxil edilir. 1936-cı ildə isə həmin sektorun bazasında SSRİ EA Azərbaycan filialı nəzdində müstəqil Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu təşkil olunur.

Oxucuların mühakiməsinə təqdim etdiyimiz bu göstərici Tarixlə yanaşı Etnoqrafiya və Arxeologiya sahəsində çap olunmuş nəşrləri də əhatə edir.

Tarix İnstitutunun keçdiyi bu tarixi inkişaf yolu 1940-cı ildən SSRİ EA Azərbaycan filialında müstəqil Tarix İnstitutunun fəaliyyətə başlaması ilə davam edir. 1945-ci ildə Azərbaycan SSR EA

təşkil olunarkən Tarix İnstitutu onun tərkibinə daxil edilir. Sonrakı illərdə Tarix İnstitutu Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutuna çevrilir. 1956-cı ildə Azərbaycan EA Rəyasət Heyəti yanında Fəlsəfə sektoru yaradıldıqdan sonra İnstitutun əvvəlki adı özünə qaytarılır. Hazırda isə bu qurum Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu kimi fəaliyyət göstərir və respublikada tarix elmi sahəsində tədqiqatları istiqamətləndirən əhəmiyyətli elmi mərkəz kimi tanınır.

Bütün bu tarixi məqamları sadalamaqda məqsədimiz A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşlarının elmi əsərlərinin biblioqrafik göstəricisini hazırlayarkən müəlliflərin və onların əsərlərinin seçimində qarşılaşdığımız çətinlikləri diqqətə çatdırmaqdır. Yeri gəlmişkən qeyd edək ki, göstəriciyə daxil edilmiş materiallar müxtəlif illər üzrə "Azərbaycan kitabiyyatı" salnamələri, Azərbaycan Elmlər Akademiyasının nəşrlərinin biblioqrafik göstəriciləri (1949-1975), RSFSR Kitab Palatasının Azərbaycan nəşrlərinin biblioqrafik göstəricisi (1976-1989), "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından tarixçi alimlərin şəxsi biblioqrafik göstəriciləri və A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşlarının əsərlərinin siyahıları, M.F.Axundov adına Milli Kitabxananın "Azərbaycan kitabı" arxivində dəqiqləşdirmələr aparmaqla ərsəyə gəlmişdir.

Biblioqrafik göstəricinin təqdim edilən *birinci hissəsi* tarixçi alimlərin yalnız kitab halında nəşr edilmiş əsərlərini əhatə edir. Gələcəkdə nəşri nəzərdə tutulmuş *ikinci hissə* dövri mətbuat və toplularda nəşr olunmuş məqalələri əhatə edəcəkdir. Göstəriciyə daxil edilmiş əsərlər Azərbaycan, rus və digər dıllərdə olmaqla bölmələrə ayrılmışdır.

Biblioqrafiyanın birinci hissəsinin *ilk fəslində* biblioqrafik qeydiyyata alinmış Azərbaycan dilində olan bütün nəşrlər müəlliflərinin adı və soyadının ardınca əlifba sırası ilə verilmişdir ki, da tarixçi-alımın keçdiyi yaradıcılıq yolu ilə taniş olmaqa imkanı verir.

Rus dilində olan nəşrləri əhatə edən *ikinci fəsil də* eyni strukturda təqdim edilmişdir.

"Tarixə tarixçi baxışlarının xronoloji biblioqrafiyası" adlanan *üçüncü fəsildə* bütün nəşrlər illər daxilində əlifba sırası gözlənilməklə





xronoloji ardıcıllıqla düzülmüşdür. Qeyd edək ki, ədəbiyyatın belə qruplaşdırılması müxtəlif dövrlərdə, o cümlədən Müstəqillik illərində İnstitutun elmi nəşrlərini müqayisəli şəkildə izləməyə və ya illər üzrə axtarış aparmağa imkan verir.

Rus dilində olan nəşrləri əhatə edən *dördüncü fəsil də* eyni strukturda təqdim edilmişdir.

Dıgər dillərdə olan nəşrlər və Tərcümə edilmiş tarixi mənbələr *beşinci fəsildə* təqdim olunmuşdur.

Tərcümə edilmiş tarixi mənbələrin biblioqrafik siyahısında tərcümə edilmiş və şərhlər verilmiş tarixi mənbələr tərcüməçilərin adı ilə əlifba sırasında verilmiş və köməkçi göstərıcılərdə öz əksin tapmışdır.

Köməkçi göstəricilər adlanan *altıncı fəsil* sərlövhə, müəllif, redaktor, tərcüməçilər və tərcümə edilmiş tarixi mənbələrə görə axtarış aparmaq üçün nəzərdə tutulmuşdur.

Təqdim etdiyimiz biblioqrafik göstərici müstəqillik illərində Azərbaycanın tarixşünaslıq elminin biblioqrafik qeydiyyatı sahəsində ilk təşəbbüsdür və onun gələcəkdə təkmilləşdirilməsi üçün irad və təkliflərini bizə çatdıracaq istifadəçilərimizə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

***Əmin Əfəndiyev***
***Zakirə Əliyeva***

## İXTİSARLAR

| | |
|---|---|
| *APDU* | *Azərbaycan Dövlət Pedaqoji Universiteti* |
| *AzFAN* | *rus dilində: Azerbaydjanskiy filial Akademii Nauk SSSR.* |
| *DDA* | *Doktorluq dissertasiyasının avtoreferatı* |
| *DD* | *doktorluq dissertasiyası* |
| *EA* | *Elmlər Akademiyası* |
| *MEA* | *Milli Elmlər Akademiyası* |
| *NDA* | *Namizədlik dissertasiyasının avtoreferatı* |
| *ND* | *Namizədlik dissertasiyası* |
| *Red.* | *Redaktor* |
| *T.e.* | *Tərcümə edən* |
| *АКД* | *Автореферат кандидатской диссертации* |
| *АДД* | *Автореферат докторской диссертации* |
| *КД* | *Кандидатская диссертация* |
| *ДД* | *Докторская диссертация* |
| *Ред.* | *редактор* |
| *АН* | *Академия Наук* |
| *НАН* | *Национальная Академия Наук* |





# I Fəsil

## AZƏRBAYCAN TARİXÇİLƏRİN ELMİ ƏSƏRLƏRİ

## /KİTABLAR/

### 1.1. MÜƏLLİFLİ NƏŞRLƏR

**Abbasov M.**

1. Azərbaycan kommunist partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə. – Bakı: Azərnəşr, 1960.- 60 s.

**Abdullayev Həsi.**

2. İslam dini haqqında. – Bakı: Azərnəşr, 1958. -119 s.
3. İslam dininin əmələ gəlməsi və bəzi məsələləri. – Bakı,1959.- 48 s.
4. İslamın məhərrəmlik mərasimi- Baku, 1967. – 156 s.
5. Marksizm –Leninizm və din.- Bakı, 1950.- 24 s.

**Abışov Vaqif.**

6. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər) /Red.: H.S.Əzimov, İ.S.Məmmədov. – Bakı: Nurlan, 2007. – 176 s.
7. 1917-1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşi soyqırımı siyasəti. NDA.–Baki, 2007.– 26 s.
8. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. – Bakı: Qartal, 2001. – 176 s.

**Ağayev Ramil.**

9. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər) /Red.: Ş.Fərzəliyev. – Bakı: Kür, 2004. – 151 s.
10. XV-XVI əsrlər Azərbaycan və Mərkəzi Asiya feodal dövlətlərinin qarşılıqlı münasibətləri. NDA. - Bakı, 2005. - 24 s.



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.